Jurnalistika
Və İnkişaf Mərkəzi
İctimai Birliyi

**Ünvan:** Nəsimi rayonu, Bəşir Səfəroğlu küç. 169
**Tel.:** 012-436-99-32
**Mob.:** 070 335 15 59
**E-mail:** elmin01@mail.ru

**Bakı şəhəri** **№___ "___" ____________20**

"Jurnalistika və İnkişaf Mərkəzi" İctimai Birliyinin yol hərəkəti təhlükəsizliyinə dair müxtəlif qurumlara
TƏKLİFLƏRİ

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının
Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsi
Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi (DYP və NİİM)
"AzərEnerji" ASC
"Azərişıq" ASC
İcbari Sığorta Bürosu
"Azərbaycan Dəmir Yolları" QSC
Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi
Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi
TƏBİB

Nəzərinizə çatdırmaq istəyirik ki, Azərbaycan Respublikası Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin dəstəyi ilə "Jurnalistika və İnkişaf Mərkəzi" İctimai Birliyi 2025-ci ilin may-iyul ayları ərzində "Yol-nəqliyyat hadisələrinin təsnifatı: səbəb və nəticələrin təhlili" layihəsini icra edib. Layihə Bakı şəhərini əhatə edib. İcra planı əsasında layihəyə hazırlıq, 15 məqalənin həm Avtosfer.az saytında, həm də "modern.az", "yenicag.az" və "demokrat.az" saytlarında dərc olunması, eyni zamanda, paytaxt və ətrafındakı ərazilərdə qəza ocaqlarının araşdırılması həyata keçirilib. Eyni zamanda, Araz FM radiosunda

bir saatlıq veriliş təşkil edilib. Layihənin 2-ci mərhələsinin icrası dövründə piyadavurma hadisələrinin səbəbləri, sürücüləri çətin vəziyyətdə qoyan yollarda işıqfor və nişanların çatışmazlığı, yaxud onların ağacların budaqları arxasında gizlənməsi, saxta ehtiyat hissələri və naşı ustalar tərəfindən quraşdırılan hissələrin qəzalara səbəb olması və yolların işıqlandırılmamasının yaratdığı problemlərlə əlaqəli faktlar detallı şəkildə araşdırılıb. Araşdırmaların nəticələrinə dair 15 məqalə hazırlanıb.

1) https://avtosfer.az/az/oyrenek/nasaz-eskalatorlar-piyadalari-avtomobil-yolundan-istifadeye-mecbur-edir-mutexessi%CC%87s-reyi%CC%87-vi%CC%87deo-285011

2) https://avtosfer.az/az/qaydalar/bu-yolayricinda-tehluke-ile-uzlesen-suruculer-dyp-ve-ayna-dan-komek-i%CC%87steyi%CC%87r-vi%CC%87deo-285544

3) https://avtosfer.az/az/oyrenek/duracaqdaki-avtomobile-sonradan-deymis-zereri-kim-qarsilamalidir-ersad-huseynov-aciqladi-foto-283936

4) https://avtosfer.az/az/qaydalar/surucuye-yol-gostermeli-olan-nisanlar-ve-xetler-bezen-tehluke-yaradir-sebeb-foto-285755

5) https://modern.az/aktual/518806/svetofor-aghacin-arxasinda-gizlenib-nishanlar-ise-yoxdur-video/

6) https://avtosfer.az/az/oyrenek/bakida-28-mallun-qarsisindaki-tehlukesizlik-adaciginda-kiosk-sahibi-gul-satdirir-foto-291308

7) https://demokrat.az/az/news/236844/yeni-tikilen-binalar-nisanlar-butulka-effektli-yollar-qezalarin-sebebleri-aciqlandi-foto

8) https://avtosfer.az/az/oyrenek/nasi-ustalarin-qurasdirdigi-ehtiyat-hisseleri-yangina-sebeb-olur-aciqlama-foto-286615

9) https://avtosfer.az/az/oyrenek/masina-qurasdirilan-kolonkalar-yangina-sebeb-ola-biler-mutexessi%CC%87sden-xeberdarliq-foto-286158

10) https://avtosfer.az/az/qaydalar/gozegorunmez-stop-nisani-suruculeri-tehlukeye-salir-si%CC%87kayet-var-vi%CC%87deo-283828

11) https://avtosfer.az/az/oyrenek/cerimeler-artirilib-amma-suruculer-hele-de-bu-sehve-yol-verir-ekspertden-aciqlama-vi%CC%87deo-287494

12) https://avtosfer.az/az/avtosfer-tv/surucu-isiqforun-qirmizi-isiginda-mobil-telefondan-istifade-ede-biler-ersad-huseynovdan-aciqlama-vi%CC%87deo-290537

13) https://yenicag.az/azerbaycanda-qezalarda-olum-hallarinin-sayini-nece-azaltmaq-olar-ekspertden-qurumlara-teklif-video

14) https://avtosfer.az/az/avtosfer-tv/yol-hereketi-haqqinda-qanunun-yenilenmesine-ehtiyac-var-ekspertden-aciqlama-vi%CC%87deo-292168

15) https://avtosfer.az/az/oyrenek/suruculerin-diqqetine-bakidaki-bu-tunelde-diqqetli-olun-qefil-ustunuze-vi%CC%87deo-289353

Araşdırmalar nəticəsində müəyyən olunub ki, paytaxt və ətrafındakı ərazilərdə qəzaların bir neçə səbəbi var. Yol nəqliyyat hadisələrinin baş verməsinin ilkin səbəbi sürət həddini aşma, yaxud yol və hava şəraitinə uyğun davranışın nümayiş etdirilməməsidir.

Tələskənlik, görüntü məhdudiyyəti olan yerlərdə edilən təhlükəli manevrlər qəzaya gətirib çıxarır. Sürətə nəzarət üçün stasionar radarlarla yanaşı mobil radarların tətbiqi önəmlidir.

Qəza və ya texniki nasazlıq zamanı yollarda davranış qaydaları digər önəmli səbəblərdəndir. Paytaxtın bəzi ərazilərindəki qəza ocaqları artıq insanların tamaşa zonasına çevrilib. Kiçik toqquşmalar tamaşaya gələnlərin diqqətini cəlb edir və ya sürəti azaldanlar daha xaotik vəziyyət yaradır. Qəza zamanı sürücülər çox hallarda yollarda təhlükəsizliyi təmin etmir. Texniki nasazlıq səbəbindən dayanmanı necə həyata keçirməli olduğunu bilməyən sürücü maşının yolun hərəkət hissəinə tərəf qapısını açıq qoyur, qəza dayanma nişanını quraşdırmır və nəticə çox ağır olur.

Piyadaların iştirakı ilə baş verən qəzalar – Piyadavurma halı və piyadanın yolun onlara aid olmayan hissəsindən keçərkən avtomobili qaçırmağa çalışan sürücünün hadisə törətməsinə gətirib çıxaran hallardır. Araşdırmalar nəticəsində müəyyənləşir ki, bir çox hallarda piyadalar yolu avtomobillərin hərəkət hissəsindən keçməsinə səbəb ya nasaz eskalatorlar, ya da işıqlandırlımayan yeraltı və yerüstü keçidlərdir. Məsələn, Qaradağ rayonu Müşfiqabad qəsəbəsində DYP postuna çatmamış yerüstü keçidlərlə bağlı vəziyyət acınacaqlıdır. Burada həm postdan əvvəl, həm də postdan sonra keçmiş dövrdən qalma, tunel tərzində salınan 2 yerüstü keçid var. Axşam saatlarında o yolda hərəkətlilik azalan kimi həmin keçidlər evsiz şəxslərin, “bomj”ların, narkomanların yaşadığı, gecələdiyi məkana çevrilir. Uzun müddətdir bu vəziyyət yarandığı üçün oradan pis qoxu gəlir. Buna görə də piyadalar həmin keçidlərdən istifadə etmir və keçidlərin yaxınlığında qəza riskləri yaranır.

Şıx çimərliyi həndəvərində cəmi 1 ədəd yerüstü keçid var, o da axşam saatlarında işıqlandırılmır. Ərazini müşahidə edərkən məlum olur ki, 10 nəfərdən 7-si həmin keçiddən istifadə etmir. Bu yolda sürət limiti 80 km/saatdır.

“20 Yanvar” metrosundan Ziya Bünyadov prospektinə doğru hərəkət edərkən qoyulmuş yerüstü keçid işqılandırılmır. Axşam olan kimi yerüstü keçidin altından betonların arası ilə piyadalar yola qaçır. a dəqiqələrlə gözləməlidir ki, yol boşalsın, ya da özlərini maşının altına atırlar.

“Koroğlu” metrosu ətrafında da eyni vəziyyətdir. Xəlil Rza Ulutürk və 4-cü uzununa küçələrində taksilər sərnişini metroya ən yaxın yer olaraq tunelin çıxışında düşürür. Taksidən düşən sərnişin də 50 metr aralıdakı piyada keçidinə getmək əvəzinə, elə düşdüyü yerdən yolu metro tərəfə keçməyə çalışır. Ora avtobusların da yoludur, digər nəqliyyat vasitələrinin də. Buna görə də piyadalar ərazidə xaosa və qəza şəraitinin yaranmasına səbəb olur.

Sabunçu rayonu Bakıxanov qəsəbəsi Bəşir Bünyadov və Süleyman Sani Axundov küçələrinin kəsişməsi də qəza ocaqlarından biridir. Ərazidə işıqfor və radar olmadığı üçün sürət limiti aşılır. Piyadalara “zebra”da yol verilmir. Ərazidəki problemlər bir müddət əvvəl 2 ailənin piyada keçidində məhv olmasına səbəb olub.

Yolların işıqlandırılması vacib elementdir. Aparılan təhlillər göstərir ki, bu ilin 3 ayı ərzində baş verən 267 yol qəzasından 121-ü sutkanın gündüz, 146-sı ilə toran və qaranlıq vaxtlarında qeydə alınıb. Bu qəzalar isə ölüm və xəsarətlə nəticələnib. Bu o deməkdir ki, işıqlandırlmayan yollarda işıq problemi həllini daha tez tapmalı, eyni zamanda, nəzarət mexanizmi gücləndirilməlidir. Sürətin məcburi qaydada azaldılması mexanizminə diqqət yetirmək lazımdır.

Bəzi yollarda, xüsusən və yaşayış zonalarında sürətin məcburi endirilməsi üçün xüsusi vasitələrin yollarda tətbiqi qanunvericilik aktlarında əkstini tapmalıdır. Bir çox ölkələrin təcrübəsində bu vasitələr "yol-hərəkəti təhlükəsizliyinə aid digər qurğular" adı altında qanunla tətbiq olunur. Ölkəmizdə isə kimlərsə bəzi yollarda kustar üsulla plastik, kəndir və asfalt-beton qarışığı ilə yolda maneə yaradaraq sürəti azaltmağa çalışır ki, bu da qanunsuz sayılır və FHN tərəfindən sökülür.

Layihənin 4-cü mərhələdə - iyulun 16-da "Yol-nəqliyyat hadisələrinin təsnifatı: səbəb və nəticələrin təhlili" adlı layihə çərçivəsində ictimai müzakirə keçirilib. Tədbirdə:

1)Hüquqşünas Ərşad Hüseynov;

2)Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat xidməti idarəsinə şöbə rəisi Anar Qafarov;

3)ADY İctimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı Pərviz Sadıqov;

4)İcbari Sığorta Bürosunun şöbə müdiri Sadiq Mədətov;

5)FHN-in Dövlət Yanğından Mühafizə Xidmətinin nümayəndəsi Əlibala Əlizadə;

6)Xüsusi Riskli Xilasetmə Xidmətinin nümayəndələri Müvəssil Allahverdiyev;

7) Nəqliyyat eksperti Rauf Ağamirzəyev;

8)"Hed Academy"nin rəhbəri Ruslan İbrahimov;

9) Azərbaycan Avtomobil Dilerləri Assosiasiyasının idarə heyətinin sədri Eyyub Əliyev;

10) Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov;

11) "Xaliq Faiqoğlu" MMC-nin nümayəndəsi Aysel Hüseynova;

12) Nəqliyyat eksperti Eldəniz Cəfərov və başqa ictimaiyyət və media nümayəndələri iştirak edib.

Tədbir zamanı araşdırmaların nəticələri qonaqlara təqdim olunub. Hazırlanan PPT variantında videotəqdimatla qəzaların başvermə səbəbləri detallı şəkildə izah edilib və bunun əsasında qonaqlarla problemlərin həlli istiqamətində aidiyyəti qurumlara təqdim ediləcək şəkildə təkliflər hazırlanıb.

"Jurnalistika və İnkişaf Mərkəzi" İctimai Birliyinin sədri Elməddin Muradlı qeyd edib ki, baş verən qəzaların bir çoxu sürət həddinin aşılması, yolayrıcını keçmə, ötmə-manevr qaydaların pozulması, mobil telefona diqqətin yönəlməsi nəticəsində meydana çıxır. Bunun üçün həm sürücülərin radarların yerini əzbərləmələrinin qarşısı alınmalı, həm də yol nişanları və işıqforlarla bağlı daha müfəssəl işlər görülməlidir. Telefon məşğuliyyətinin qarşısını almaq üçün xüsusi texniki vasitələrin tətbiqi zamanı yeni mexanizmlər düşünmək vacibdir. Bəzi ölkələrdə radar və kamera quraşdırmaq mümkün olmayan yollarda dronlarla daha təsirli nəzarət mexanizmi təşkil edilir. Bu məsələnin qanunvericilikdə əksini tapması faydalı olar. Təhlükəsizlik kəmərini taxmamağa görə cərimələr kamera ilə tətbiq ediləndən sonra vəziyyət müsbətə doğru dəyişib. Bunu nümunə kimi nəzərə almaq lazımdır.

Svetoforun qırmızı işığında hərəkət, sürət həddinin yüksək formada aşılması və digər bu kimi ağır qayda pozuntularına il ərzində bir neçə dəfə yol verən sürücülərin ciddi cəzalanmasını qanunverilikdə nəzərə almaq lazımdır. Elə sürücülər var ki, il ərazində bu kimi ağır xətaları törətdiyi halda cərimə və balla yüngül cəza çəkir. Bir çox ölkələrdə belə sürücülərin sürücülük hüququ ikinci dəfədən məhdudlaşdırılır və həmin şəxs psixoloji müalicəyə göndərilməklə sonrakı dönəmlərdə sürücülük vəsiqəsi sınaq müddətinə verilir.

Azərbaycanda bu məsələyə diqqət çəkmək vacibdir. Eyni zamanda, sürücülük vəsiqəsini yeni alan şəxslərlə bağlı məsələyə də qiqqət yetirmək olar. Bu zaman vəsiqə sınaq müddətinə verilməlidir. Bir il

sınaq müddətində təhlükəli qayda pozuntularına yol verənlər yenidən imtahana və tibbi müayinəyə yönləndirilməlidir.

Dəmir yolu keçidlərindən istifadəyə dair cərimələr bir ildə iki dəfə artırılsa da, bu sahədə ciddi problemlər var. Sürücü və piyadalar tərəfindən dəmir yolu keçidlərindən düzgün iftidadə olunmaması ağır nəticələr verir. Dəmir yollarının mühafizə zolaqlarına ciddi nəzarət lazımdır. Eyni zamanda, qayda pozan sürücü və piyadalara qarşı cəza mexanizmi işləməlidir ki, qaydalara əməl edilməsi təmin olunsun.

Maddi zərərlə nəticələnən yol qəzaları zamanı sürücülərin hadisə yerində qalması sığortadan ödəniş ala bilməmək və DYP tərəfindən cərimə edilmək qorxusundan irəli gəlir. Bu məsələ barədə geniş təbliğat işlərinə ehtiyac var. Çünki saatlarla qəza yerində dayanmaq sıxlıq və tıxac yaradır, bəzən başqa hadisələr də baş verir.

Fövqəladə Hallar Nazirliyinin Xüsusi Riskli Xilasetmə Xidmətinin nümayəndəsi Müvəssil Allahverdiyev deyir ki, bəzi hallarda qəzanı kənardan müaşhidə edən şəxslər ağır qəzalara kömək etməyə çalışır. Onlar maşının içində, yaxud altında sıxılıb qalan şəxsləri hadisə yerindən dartıb çıxararkən olaylara müdaxilələr edir ki, bu da qurum əməkdaşlarının işini çətinləşdirir. Belə məqamlarda daha diqqətli olmaq, çıxarılması çətin şəxslərlə bağlı qurumun işçilərinə maneə yaratmamaq lazımdır. Bəzi vətəndaşlar qəzanı telefonla çəkir və digər hərəkətlər edirlər. Bununla belə, bəzən yanğına, yaxud xilasetmə əməliyyatına tələsən operativ nəqliyyat vasitələrinin də yolu istər geniş küçələrdə, istərsə də məhəllədaxili yollarda başqa avtomobillər tərəfindən tutulur. Bu həmin nəqliyyat vasitələrinin hadisə yerinə gecikməsinə gətirib çıxarır. Bununla əlaqədar təxirəsalınmaz işlərin görülməsi ön plana çəkilməlidir.

FHN-in Dövlət Yanğından mühafizə Xidmətinin nümayəndəsi Əlibala Əlizadə tədbirdə çıxışı zamanı bildirib ki, statistikalara nəzər salsaq, 2023-cü ildə də 400 belə hadisə olub və 10 ölüm qeydə alınıb. Ötən il bu say 339-a düşüb və 1 ölüm halı olub. Bu il isə iyulun 15-nə qədər olan statistikaya görə 240 yanğın hadisəsi olub. Bu rəqəmlər hər il azalır. Bunun əsas səbəbi maarifləndirmə ilə bağlıdır. O qeyd edib ki, əvvəlki avtomobil yanğınlarından fərqli olaraq son illərdə baş verən belə hadisələrdə elektromobillərin yanması hallarına tez-tez rast gəlinir. Buna görə də elektromobillərin qurumun əməkdaşları artıq ənənəvi yanğın mayesi əvəzinə biounviersal köpükəmələgətirən mayedən istifadə olunur.

Göründüyü kimi, nəqliyyat vasitələrində yanğın və qəza zamanı xilasetmə işlərində kortəbii davranışlar ciddi ziyan vurur. Son illər Azərbaycana kütləvi şəkildə gətirilən elektrik, plagin-hibrid və hibrid tipli nəqliyyat vasitələrinin yanması zamanı daha fərqli davranış nümayiş etdirilməsi zərurəti yaranıb. Bununla bağlı qanunvericilikdə boşluqlar var. Eyni zamanda, geniş maarifləndirmə işləri də aparılmalıdır. Qəza zamanı yaralılara ilkin tibbi yardım məsələsini də unutmaq olmaz. Çoxlarının heç ilkin bilikləri belə yoxdur.

Bu gün yol hərəkəti təhlükəsizliyində bizi narahat edən əsas məsələlərdən biri də ikitəkərli nəqliyyat vasitələrinin iştirakı ilə baş verə biləcək yol-nəqliyyat hadisələrinin qarşısının alınmasıdır. Bu məqsədlə polis əməkdaşları tərəfindən nəzarət və profilaktik tədbirlər davam etdirilir. Polis əməkdaşlarının mütəmadi olaraq apardıqları profilaktik tədbirlər zamanı sürücülərə qanunvericiliyin tələbləri izah olunur, qayda pozuntularının digər hərəkət iştirakçılarına yaratdığı təhlükələr diqqətə çatdırılır. Nəzərə alaq ki, yol-nəqliyyat hadisələrinin qarşısının alınmasında təbliğat və maarifləndirmə önəmlidir. Çünki həyatımıza yeni daxil olan bu tip nəqliyyat vasitələri ilə davranış qaydaları hələ tam formalaşmayıb.

Yol nişanlarının və nişanlanma xətlətinin tətbiqi zamanı edilən səhvlər, görünməz halda olması sürücüləri çətin vəziyyətə salır. Bu istiqamətdə ciddi adılmaqla işin keyfiyyətini artırmaq lazımdır

Azərbaycanda 1998-ci ildə qəbul olunmuş "Yol hərəkəti haqqında" qanun hələ də qüvvədədir və artıq bu qanunun yenilənməsinə ehtiyac var.  Qəzaların əsas səbəblərindən biri düzgün planlaşdırılmamış

keçidlər, piyadalar üçün yetərli şəraitin yaradılmaması və yol hərəkəti mədəniyyətinin zəifliyidir. Yol hərəkəti ilə bağlı məsələlər yalnız texniki infrastrukturla deyil, eyni zamanda maarifləndirmə, təhlil və effektiv qərarlarla həllini tapmalıdır.

Layihə müddətində mediada yayılan məlumatlar, təşkilata daxil olan müraciətlər, yol qəzalarından yayılan videolar, qəzaların baş verdiyi ərazilər, yol qəzalarının baş verdiyi zaman, mövcud risklər təhlil olunub.

Daha sonra yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi üçün uğurlu beynəlxalq təcrübə öyrənilib. Müəyyən olub ki, ölkəmizdə sürücülərin stasionar radarların yerini əzbər bilməsi, bu məlumatı mobil tətbiq, naviqasiya proqramları üzərindən bir-birinə ötürməsi qəza risklərini daha da artırır. Tədbir iştirakçıları stasionar yox, mobil radarlar və dronlarla yollara nəzarətin daha da gücləndirilməsi fikrini dəstəkləyiblər. Naviqasiya proqramlarında radarların yerini bildirmək sistemi ləğv edilməlidir. DİN tərəfindən tıxacsız yollarla bağlı sürücülərə məlumatları daha çevik ötürən naviqasiya sistemi formalaşdırıla bilər ki, bu zaman alternativ yollar köməyə çata bilər. Lakin ötən il parklanma taarifləri müəyyənləşəndən sonra sürücülər daha çox məhəllədaxili yollarda park edir. Bu zaman alternativ yollar zəbt olunur. Rayon DYP şöbələri bu məsələyə diqqətlə yanaşmalıdır. Bununla həm də hər hansı hadisə zamanı sıx yollarda operativ nəqliyyat vasitələrinin rahat hərəkəti təmin edilə bilər. Xüsusən gecələr belə məhəllədaxili yollarda xaotik parklanma ciddi təhlükələr yaradır.

Layihənin 5-ci mərhələsində sosial mediada canlı yayım açılaraq yol qəzalarının səbəbləri, problemin qarşısının alınması üçün yol-hərəkəti iştirakçılarının təklifləri öyrənilib. Yol hərəkəti təhlükəsizliyinin təmin olunması yolları əlaqədar təşkilatlar, dövlət qurumları, qeyri-hökumət təşkilatları və yol hərəkəti iştirakçılarının iştirakı ilə ictimai müzakirə keçirilərək müzakirə olunub. Uğurlu beynəlxalq təcrübə öyrənilərək yol hərəkəti təhlükəsizliyinin təmin olunması üçün təkliflər hazırlanıb. Hazırlanan tədqiqat sənədi yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi üçün ölkəmizdə həyata keçirilən fəaliyyətə dəstək məqsədi daşıyır. Araşdırmaların daha müfəssəl olması və bu il baş verən yol-nəqliyyat hadisələrinin səbəb və nəticələrini Baş Dövlət Yol Polisi İdarəsi və Bakı şəhər Dövlət Yol Polisi İdarəsinə sorğu verilib. Nəticələr sayt, sosial şəbəkələr və digər resurslar vasitəsilə ictimaiyyətin diqqətinə çatdırılıb.

Son mərhələdə isə yol hərəkəti təhlükəsizliyinin təmin olunması üçün təkliflər hazırlanaraq ictimailəşdirilib.

Dərc edilən materiallar, tədbir və radio verilişi ilə bağlı bütün linklər hesabatın "PDF" linkində təqdim olunub.

Əlavə olaraq bildirək ki, cari ilin altı ayı ərzində ölkə ərazisində 577 yol-nəqliyyat hadisəsi qeydə alınıb. Bu da ötən illin müvafiq dövrü, yəni 2024-ci ilin 1-ci yarısı ilə müqayisədə 104 fakt azdır. Qeydə alınmış yol-nəqliyyat hadisələri nəticəsində ölənlərin sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə 20 nəfər azalaraq 313, xəsarət alanların sayı isə 99 nəfər azalaraq 499 nəfər təşkil edib.

Baş verən yol nəqliyyat hadisələrinin nəticəsində ən çox narahatlıq doğuran məsələlərdən biri də piyadaların vurulmasıdır. Altı ay ərzində 243 piyada vurma hadisəsi qeydə alınıb ki, nəticədə 126 nəfər həlak olub, 131 nəfər isə xəsarət alıb. Bu da hadisələrin 42,1%-i, ölənlərin 40,2%-i, xəsarət alanların isə 26,2%-i deməkdir. Bununla yanaşı, altı ay ərzində nəqliyyat vasitələrini yüksək sürətlə idarə etmə, qarşıdan gələn nəqliyyat vasitələrinin hərəkət zolağına çıxma və ötmə qaydalarının pozulması, yolayrıcını keçmə qaydalarının pozulması kimi sürücülər tərəfindən yol verilən qayda pozuntularının sayı yenə də çoxdur və qeyd edilən halların sayı qənaətbəxş hesab olunmur.

Belə ki, nəqliyyat vasitələrinin yüksək sürətlə idarə edilməsi nəticəsində 221 yol-nəqliyyat hadisəsi qeydə alınıb ki, nəticədə 147 nəfər həyatını itirib, 144 nəfər müxtəlif dərəcəli xəsarətlər alıb. Eyni zamanda,

qarşıdan gələn nəqliyyat vasitələrinin hərəkət zolağına çıxma və ötmə qaydalarının pozulmasına görə 249 fakt qeydə alınıb. Nəticədə, 124 nəfər həyatını itirib, 254 nəfər xəsarət alıb.

Bütün bunların qarşısını almaq üçün yuxarıda qeyd olunan tədbirlərin görülməsinə ciddi ehtiyac var. Nəzarət mexanizmi gücləndirilməlidir. Son dövrlər DYP tərəfindən sürətölçən cihazların və kameraların yollara quraşdırılması intensivləşib. Hesab edirik ki, bu addımlar yol qəzalarının qarşısını almaqda rol oynayacaq. Bundan əlavə, yollarda sürəti, qadağan olunan yerlərdə ötməni, qarşı yola çıxmanı əngəlləyən addımlar da atılmalıdır. Bunun üçün dronlardan istifadə mütləqdir. Eyni zamanda, sürəti azaltmağa məcbur edən çıxıntılı maneələrin asfalta bərkidilməsi önəmlidir.

Bir zamanlar dəmir arakəsmlərin tətbiqində edilən səhvlər bu gün beton arakəsmələrin tətbiqində bir daha təkrarlanır. Mühəndislərin etiyi səhvlər və etinasız yanaşma nəticəsində beton sədlər asfalta tam bərkidilmir və arası seyrək quraşdırılır. Hansı ki, bu qurğular ən azı 10 sm yerə basdırılmalı və sıx formada quraşdırılmalıdır.

## 2025-ci ilin yanvar-mart aylarında avtomobil yollarında baş vermiş yol-nəqliyyat hadisələri haqqında

2025-ci ilin yanvar-mart aylarında 267 və ya 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə 17,8 faiz az yol-nəqliyyat hadisəsi baş verib, bu hadisələr nəticəsində zərər çəkən şəxslərin sayı 16,6 faiz azalaraq 372 nəfər olub. Onlardan 149-u həlak olub, 223-ü isə yaralanıb. Hadisələrin 45,3 faizi gündüz, 36,3 faizi gecə, 18,4 faizi isə toran vaxtı baş verib, 29,2 faizi həftənin şənbə və bazar günlərinə təsadüf edib.

Yol-nəqliyyat hadisələrinin 88,0 faizi yaşayış məntəqələrində baş verib, bu hadisələr nəticəsində həlak olanların sayı ötən ilin müvafiq dövrünə nisbətən 12,8 faiz azalaraq 102 nəfər, yaralananların sayı isə 19,8 faiz azalaraq 215 nəfər olub.

**Yol-nəqliyyat hadisələrinin və zərərçəkənlərin sayı**

| Göstəricinin adı | 2025-ci ilin yanvar-mart aylarında | 2024-cü ilin yanvar-mart aylarına nisbətən, faizlə |
|---|---|---|
| **Bütün yol-nəqliyyat hadisələri – cəmi** | **267** | **82,2** |
| **Məkanına görə:** | | |
| magistral avtomobil yollarında | 32 | 74,4 |
| yaşayış məntəqələrində | 235 | 83,3 |
| **İşıqlılıq vəziyyətinə görə:** | | |
| gündüz vaxtı | 121 | 91,0 |
| toran vaxtı | 49 | 66,2 |
| gecə vaxtı | 97 | 82,2 |
| **Yol örtüyünün vəziyyətinə görə:** | | |
| quru yol örtüyü | 253 | 132,5 |
| digər (yaş, buz və s.) | 14 | 41,2 |
| **Zərərçəkənlərin sayı, nəfər** | **372** | **83,4** |
| həlak olanlar | 149 | 93,7 |
| yaralananlar | 223 | 77,7 |

Bütün yol-nəqliyyat hadisələrinin 46,8 faizi nəqliyyat vasitələrinin və piyadaların, 33,7 faizi bir neçə nəqliyyat vasitəsinin, 19,5 faizi isə bir nəqliyyat vasitəsinin iştirakı ilə baş verib. Yol-nəqliyyat hadisələri nəticəsində həlak olanların 76,5 faizini, yaralananların isə 69,5 faizini kişilər təşkil edib.

Elməddin Muradlı Jurnalistika və İnkişaf Mərkəzi İctimai Birliyinin sədri,

layihə rəhbər, nəqliyyat eksperti